**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.216**

**BƏXTİYAR YUSUFOV***

# RƏSSAMIN FORMALAŞMASINDA PLENERIN ROLU

*Hər bir incəsənət növünün malik olduğu yaradıcılıq sirrlərinin özünəməxsus öyrənmə yolları və üsulları mövcuddur. Təsviri sənətin müxtəlif sahələri ilə məşğul olmaq istəyən hər kəs çox çalışaraq ilk növbədə özünü tərbiyələndirməlidir. Rəssam nə qədər istedadlı olsa da, onun yaradıcı şəxsiyyət olaraq formalaşmasında bədii təcrübənin olduqca böyük rolu vardır. Odur ki, hər bir rəssam daim öz təcrübəsi sayəsində təkmilləşərək pillə-pillə yaradıcılıq zirvəsinə doğru addımlamalıdır. Gənc rəssamların yetişməsində plenerin olduqca əhəmiyyətli rolu vardır. Plener açıq havada, təbii işıqda rəsm əsərlərinin yaradılması deməkdir. Rəssamlıqda xüsusi bir texnika sayılan plener fransız sözündən götürülmüş, mənası açıq hava deməkdir. Plener texnikası rəssamların studiya və emalatxanalardan kənarda işləməsini, açıq havada və təbii işıqlandırmada olan rəng müxtəlifliyini çəkməyini ehtiva edir.*

***Açar sözlər:*** *plener, rəssam, açıq hava, təbii işıq, rəng, texnika*

## Giriş

Rəssam kimi formalaşmaqda plener təcrübəsi də son dərəcə əhəmiyyətli və zəruri rola malikdir. Müşahidələr nəticəsində bəlli olur ki, gənc rəssamların plener praktikasına marağı kifayət qədər yüksəkdir. Təbiətdə yaradıcılıq prosesində olarkən rəssam onun bütün incəliklərini və nüanslarını öyrənir. Açıq havada təbiət bütün dünyanı rəssamlara təqdim edir və məhz bu təcrübə tələbələrin yaradıcılıq potensialını inkişaf etdirməyə kömək edir.

## Əsas məzmun

Plenerə hazırlıq və bədii ləvazimatlarla eskiz işləməyə çıxmaq gənc rəssamlar üçün çox cəlbedici olan peşəkar bədii-yaradıcı fəaliyyətin əsas xüsusiyyətlərinə malikdir. Əbəs yerə deməyiblər ki, təbiət ən yaxşı müəllimdir. Bu baxımdan tələbələrin, gənc rəssamlar plener təcrübəsi nəticəsində aşağıdakı bilik, bacarıq və vərdişləri dərindən mənimsəməyə və inkişaf etdirməyə nail olurlar:

- müşahidə qabiliyyətini inkişaf etdirmək, ətraf mühiti dərindən anlamaq və ən əsası təbii mühitdə doğma yurdun tarixini, mədəniyyətini və təbiətini öyrənmək;
- genişmiqyaslı üçölçülü məkanda təbiəti qavrayaraq onun müstəvidə ikiölçülü fəzada təsvirini əks etdirmək bacarığını formalaşdırması;
- işıqlandırmanın ümumi vəziyyətini nəzərə alaraq rənglərin zənginliyini, ətrafdakı atmosferi və günəş işığının verdiyi təbii işığın dəyişkənliyini səth üzərində əks etdirmək və işıq-hava perspektivini ötürmək bacarığı;
- təbiətin vahid qavrayışı – işıqlandırmadan, ətraf mühitdən, məkan məsafəsindən asılı olaraq açıq havada obyektləri bütöv şəkildə qəbul etmək və orada böyük rəng əlaqələri tapmaq bacarığı;
- bədii formanın qurulması, qavranılması və təcəssüm olunması haqqında bilikləri mənimsəmək;
- xətti perspektiv, tarazlıq, planlaşdırma qanunlarının səth üzərinə doğru biçimdə köçürməyin yollarını öyrənmək;
- plener materialı toplamaq və bu materialdan istifadə etmək bacarığını təkmilləşdirmək;
- gələcək işin mövzusunu müstəqil seçmək və eskizlər hazırlamaq bacarığı;
- yaradıcı təxəyyülün inkişafı, ifadəli kompozisiya və rəng həllərinin çox yönlü və sərbəstliyi, eləcə də bədii obraz yaratmaq bacarığı və s.

Açıq havada işləmək, emalatxanada işləməkdən çox fərqlənir. Çünki təsvir motivinin axtarışı, seçimi, kompozisiyaların bədii-obrazlı həlli rəssamdan daha böyük müstəqillik, bacarıq tələb edir. Daim "hərəkətdə olan" təbiətdə (buludların, küləyin, dalğaların, kölgələrin, reflekslərin və s. hərəkəti) formalarda, çalarlarda işıq və hava dəyişkənliyini hiss etməklə həmçinin, onları müqayisə etməklə rəssam özündə bədii qavrayışı inkişaf etdirə bilər. Məhz "açıq havaya çıxmaq", məkanda işləmə hazırlığı, obrazın və motivin seçməkdə müstəqil qərar vermək gənc rəssamın peşəkarlığa atdığı ilk addımlardandır. Eyni zamanda, müxtəlif mövsümlərdə, eləcə də müxtəlif təbiət hallarının

(yağış, tufan, göy qurşağı, duman və s.) təsviri hər bir təbii motivin koloristik orijinallığını aşkara çıxarmaqda rəssamın yaradıcılıq fəaliyyətini xeyli gücləndirir. Beləcə, plener praktikası zamanı rəngkarlıq sənəti ilə məşğul olmaq bədii motivasiyanı artırır, yaradıcılıq qabiliyyətini yüksəldir, gənc rəssamın şəxsiyyətinin mənəvi keyfiyyətlərini, o cümlədən təsvir etmə biliyinin inkişaf etdirilməsi problemini aktuallaşdırır. Rəssam yaradıcılıq fəaliyyətindən bir an belə uzaqlaşmamalıdır. Belə ki, nə qədər çox düşünsək, müşahidə etsək, öz üzərimizdə çalışsaq bir o qədər rəngkarlıq sənətinin sirlərinə dərindən bələd olarıq. Bu baxımdan rəssam üçün plener təcrübəsi çox faydalıdır, çünki açıq hava şəraitində işləyərkən təbiət ona lazım olan hər bir elementi təqdim edir. Plenerdə işləyən rəssamının əsas vəzifəsi sadəcə təbiətdən hər hansı mənzərəni, insan fiqurunu, natürmortu kətana köçürmək deyil, öz yaradıcılığına can vermək, təbiətdə baş verən dəyişiklikləri rənglər vasitəsilə göstərmək və işıq-kölgə oyununu tutmaqdır.

Təbiətdə olarkən hiss orqanlarımızın müxtəlif xüsusiyyətləri, imkanları sayəsində çox şey dərk edirik. Hər bir insan mövcud olduğu mühiti öz sosial, mədəni və psixi vəziyyəti çərçivəsində qavrayır. Ətraf mühitin və cisimlərin reallığını olduğu kimi qavramağa çalışarkən, insan psixologiyası keçmiş təcrübələrlə (ailə mühitinin, təhsilin, cəmiyyətin gətirdiyi iqtisadi, sosial, dini dəyərlər və s.) ona olan münasibətin məzmununu müəyyən edir. Beləliklə, real dünya yaradıcı insanların daxili süzgəcindən keçərək duyğular vasitəsilə sənət əsərinə çevrilir.

Təbiət yaradıcı ideyaların tükənməz mənbəyidir və mövcud olan başqa heç nə onun qədər ilham vermir. Təbiət qoynunda seçdiyiniz mənzərə ilə baş-başa qaldığınız zaman qalan hər şey sanki, mövcud olmağı dayandırır və insanda elə təəssürat yaranır ki, "deyəsən, vaxt dayanıb". Plenerdə işləmək bizi gündəlik təlaşlardan uzaqlaşıb ətrafımıza baxmağa sövq edir, təbiətə heyran olmağa vadar edir, hər anın unikal və vacib olduğunu xatırladır. Həmçinin, açıq havada işləmək nəticəsində gələcəkdə yaranacaq əsərlərin kompozisiyaları üçün ideyalar yetişir. Bu səbəbdən öz yaradıcılığında plener rəngkarlıq texnikasından istifadə edən çox sayda rəssam var.

Açıq havada eskizlər çəkmək rəssamın formalaşmasında zəruridir. Eskiz dəftəri plenerdə əvəzolunmaz bir ləvazimatdır. Bilirik ki, rəngkarlıqda eskiz köməkçi xarakterli, qısamüddətli təsvir, yaranacaq əsərin ilk qaralamasıdır. Plener rəngkarlığında isə eskiz "köməkçi təsvir materialı" çərçivəsindən kənara çıxaraq düşünülmüş və dolğun məzmuna sahib təsviri sənət nümunəsi kimi ayrıca bir dəyər ifadə edir. Çünki, eskizlər təbiət haqqında ilkin təəssüratları ifadə etməyə imkan verir. Həmçinin, eskizlər ilk növbədə təbiətdəki əsas olana diqqət yetirməyi öyrədir və sizi təbiətin dəyişkən mühitində proporsiyaları, modelin xarakterini, onun hərəkətini və s. sürətlə təsvir etməyə vadar edir. İnsan fiqurlarının, şəhər və kənd mənzərələrinin, bitki və heyvanların, memarlıq formalarının, abidələrin və binaların əks etdirən eskizlərətraf aləmin əsas xüsusiyyətlərinin minimum təsvir vasitələrilə çatdırmağa, rəssamda yaranan bədii təəssüratların ümumiləşdirilməsinə kömək edir.Həmçinin, etüd təbiətin ümumi tonal və rəng vəziyyətini müəyyən etməyi öyrənmək də vacib rola malikdir. Rəssamlar qeyd edirlər ki, eskizsiz əsər yaratmaq layihəsiz ev tikmək kimidir.

Təbiətdən birbaşa səth üzərinə köçürülən eskizlər ən çox ümumi təəssüratı, obyektlərin əsas xüsusiyyətini və ya təbiətin fərdi təfərrüatlarını ötürür. Plenerdə təsvir olunan etüdlərin ən kiçik detalların belə hərtərəfli işləndiyi rəngkarlıq nümunələrindən fərqləndirən əsas cəhəti budur. Bununla yanaşı, plenerdə işləmək təcrübəsini incəsənət emalatxanasında olan təhsilin təbii davamı hesab etmək olar. Açıq səma altında rəngkarlıq nümunəsi işləmək sinifdə əldə edilmiş bilikləri yeni şəraitdə tətbiq etmək imkanı yaradaraq təbiət hadisələri haqqında təsəvvürləri zənginləşdirilir, canlılar aləminə olan marağı artırır. Beləcə təbiətin, həyatın gözəlliyini və dəyərini dərk edən gələcək rəssam bütün canlıların qayğısına qalmağı öyrənir. Beləcə, "təbiətə qərq olan" gənc rəssamın estetik və əxlaqi meyarlar formalaşır.

Təcrübəsiz rəssamlar ilk dəfə açıq havaya çıxanda hər şey onlara sadə və aydın görünür, amma təsvir etməyə başlayanda çətinliklərlə üzləşirlər. İlkin eskizlər və hazırlıq rəsmləri olmadan rəngkarlıq əsəri çəkmək müəyyən bacarıq tələb edir və yeni başlayan rəssam üçün çətindir. Təbii ki, gələcəkdə təcrübə qazandıqca əvvəldən sona qədər əsərini tamamlamaq mümkündür. Amma davamlı olaraq emalatxanada çalışan rəssamlar açıq hava şəraitində bir sıra problemlərlə üzləşirlər. İlk çətinliklər motiv axtarışı ilə başlayır çünki, rəssamın təcrübəsiz gözü ətraf aləmin çoxlu təfərrüatlarını qəbul edir

və bu onun düşüncəsində xaos yaradır. Bu səbəbdən ətrafdakı maraqlı motivlərin müəyyən etməsi və ümumiləşdirilməsi müşkül hal kimi görünür. Bu zaman etüd və ya eskizdə ciddi xətalar olur ki, bu da tez-tez üfüq xəttinin səhv yerləşməsi, işıqlandırmanın düzgün ötürülməməsi, məkanın planların və kompozisiya mərkəzini yanlış qurulması həmçinin, kompozisiyanın bütün hissələri arasında qeyri-mütənasib əlaqələr və s. ilə əlaqədar olur.Beləliklə,rəssam plenerdə çalışarkən qarşılaşdığı maneələri aşmağa və həvəsdən düşməməyə çalışmalı, eləcə də zəhmət və əzmkarlığını inkişaf etdirərək, başladığı işi son nəticəyə, tamlığa çatdırmalıdır.

Rəssam üçün görməyi öyrənmək, plastik formanı, siluetləri, xətləri, ritmləri, rəng birləşmələrinin harmoniyasını seçmək olduqca vacibdir. Təbiətlə ünsiyyət, iş prosesində onunla daimi təmasda olmaq plener rəssamlarının baxışlarını itiləşdirir və onları ətraf aləmin rəng vəziyyətindəki ən kiçik dəyişikliklərə qarşı həssas edir. Yayda plener dərslərində müstəqil şəkildə işləyən gənc rəssamların motivin seçilməsi və icrası zamanı bədii-estetik zövqünün formalaşdığını, texniki tərəfinin təkmilləşdiyini və onların peşəkarcasına yetişdiyini müşahidə etmək mümkündür. Həmçinin, açıq havada rəsm işləmək təcrübəsi tələbələrin rəsm, rəngkarlıq və kompozisiya bacarıqlarını inkişaf etdirir.

Plener təcrübəsi olan hər bir rəssam böyük rəng potensialına sahib olur və emalatxanada çalışdığı zaman bu onun köməyinə çatır. Daha əvvəl də qeyd etdiyimiz kimi plener rəngkarlıq metodunun emalatxanada işləmə təcrübəsi ilə müqayisədə çox üstünlükləri mövcuddur. Emalatxanada yaradıcılıq fəaliyyətinin özünəxas xüsusiyyətləri olsa da, açıq havada işləmək rəssama özünü təbiətin bir parçası kimi hiss etməyə, təcrübəni ruhundan keçirməyə və bu qısa anı kətan üzərində təsvir etdirməyə imkan verir. Plenerdə yaranan etüdlər insanla təbiətin uzlaşmasının, harmoniyasının dəyərli nəticəsidi.

Daima emalatxanada qapalı şəraitdə fəaliyyət göstərən rəssamın enerji mənbəyi onun özü də hiss etmədən tükənir və onun palitrasında olan təmiz, saf rənglər tədricən kirli, sönük rənglərlə əvəz olunmağa başlayır. Əgər plenerdə çəkdiyimiz kiçik bir etüdü belə emalatxanaya gətirsək görə bilərik ki, o emalatxananın ab-havasına tamamilə yaddır. Etüd ilk növbədə rəng həllinin şəffaflığı baxımından seçiləcək. Davamlı olaraq emalatxanada işləyən rəssam açıq havada işləyərkən işığın və havanın təsiri altında təbiətin rənglərinin təravətini, keçiciliyini, dəyişkən oyununu heç vaxt çatdıra bilməyəcək. Buna görə də daima emalatxanada çalışan, plener rəngkarlıq metodundan istifadə etməyən rəssamı qan itirən xəstə ilə müqayisə etmək olar. Məlumdur ki, emalatxanaya məhdud miqdarda işıq – günəş şüası daxil olur. Əgər akademik emalatxanada məkanının dərinliyi cəmi bir neçə metrlə müəyyən edilirsə, açıq məkanda olan dərinlik onlarla və yüzlərlə metrlə ölçülür. Zəif işıq isə interyerdəki predmetlərin gerçək rəng və forma effektini gizlədir. Bu səbəbdən daima emalatxana şəraitində çalışan, təbiətdən güc toplamaq üçün plenerə çıxmayan hər bir rəssamın rəng duyumu tədricən zəifləməyə və bunun nəticəsində onun əsərlərində tədricən kirli, gücsüz kolorit üstünlük təşkil etməyə başlayır. Bu baxımdan dünya rəssamlıq sənətində öz sözünü demiş bir çox sənətkarlar öz yaradıcılıqlarına çox həssaslıqla yanaşaraq, plenerdə - açıq havada işləmə təcrübəsini öz fəaliyyətlərində mütəmadi olaraq təkrarlayırdılar. Bütün bu faktlar plener rəngkarlıq metodunun rəssamın yaradıcı şəxsiyyət olaraq formalaşmasında nə qədər əhəmiyyətli olduğunu bir daha sübuta yetirir.

Əsərdə istifadə edilən palitranın saf, təbii çalarlarla zəngin olması rəssamın peşəkarlığının əsas göstəricilərindən biridir. Bu təcrübə plenerdə davamlı olaraq etüd məşqlərinin nəticəsində əldə edilir. Məlumdur ki, özümüz tərəfindən effekt istifadə edilmədən çəkmiş olsa belə heç bir fotoşəkil real təbiətdən birbaşa çəkilmiş rəngkarlıq nümunələrini əvəz edə bilməz. Fotoşəkil nə qədər keyfiyyətli olsa belə bəzi ara tonlar və kölgələr yox olur və canlı təbiətlə müqayisədə çəkilmiş görüntü səthi görünür. İstənilən kamera təbii rəngi bir istiqamətdə təhrif edir - qızdırır, soyudur, boz rəng əlavə edir. Bu səbəbdən rəngkarlıqda rəqəmsal texnologiyadan istifadəni şişirtməməli və təsviri sənəti öyrənmə prosesində heç vaxt fotoşəkildən köçürməməlisiniz. Bundan əlavə, rəssamın əsərində əks etdirdiyi şəxsi münasibətinin yaratdığı təəssürat fotoların yaratdığı təəssüratdan olduqca fərqli olur. Buna görə də bu təcrübə yeni başlayan rəssamlar üçün xüsusilə vacibdir.

Açıq hava şəraitində işləyərkən janrından asılı olmayaraq təsvir olunanın bədii quruluşu mürəkkəbləşərsə və rəssam bu çətinlikdən qorxmadan yaradıcılıq prosesinə başlayarsa o qısa müddət ərzində uğurlu nəticə əldə edə bilər. Mürəkkəb predmetlərin təsvir etməyə çalışan, can atan hər bir

rəssam öz yaradıcılığında tədricən çətin kompozisiyalı səhnələri məharətlə və bacarıqla görüntüyə gətirməyi öyrənir. Ümumiyyətlə, məlumdur ki, yaradıcılıq prosesində qətiyyət göstərmək çox zaman sənətdə yeni qapıların açılmasına səbəb olur. Təbii ki, bəzən rəssam bir əsər üzərində çox çalışsa da uğurlu nəticə əldə edə bilmir. Azərbaycan və dünya rəssamlarının təcrübəsində bunun bir çox örnəklərini görə bilərik. Amma bu uğursuzluq qarşısında təslim olmayan və fəaliyyətində qətiyyət göstərərək öz təcrübəsini genişləndirən rəssamın sonda ərsəyə gətirdiyi əsər uğurlu, yaddaqalan tablolarından biri ola bilər. Bu səbəbdən rəssam qarşılaşdığı çətinlikdən qorxmamalı, məqsədinə nail olmaq üçün hər bir üsulu təcrübədən keçirməlidir.

Təbii ki, günün səhər tezdən, günəşli və ya axşam vaxtının vəziyyətinin təsviri rəssamdan təsvir olunanı obrazlı şəkildə dərk etməyi və dərk edilən təbiət hadisəsinə öz emosional münasibətini çatdırmaq üçün adekvat təsvir vasitələri tapmağı tələb edir. Eyni zamanda, hər bir təbii motivin – yaz, yay, payız, qış mənzərəsinin, eləcə də müxtəlif təbii şəraitinin (yağış, tufan, göy qurşağı, duman və s.) koloristik orijinallığını müəyyən etmək rəssamın yaradıcılıq fəaliyyətini əhəmiyyətli dərəcədə aktivləşdirir. Təbiətdəki işıqlandırma daim dəyişir, buna görə də rəssamın təsvir olunan təbii vəziyyətin koloristik mahiyyətini müəyyən edən əsas rəng və ton kontrastlarını müəyyən etmək üçün təcrübəsi olmalıdır. Bütün bunlar rəssamın fəal yaradıcılıq fəaliyyətinin olmasını şərtləndirir.

Qeyd etdiyimiz kimi, açıq hava şəraitində hər bir yeni əsəri ərsəyə gətirmək üçün rəssam böyük səy göstərməli və əmək sərf etməlidir. Ümumiyyətlə, plenerdə yaradılan hər bir yeni rəngkarlıq etüdü rəssamın təcrübəsinin daha da artmasına səbəb olur. Müsbət nəticə əldə etmək üçün çox səy lazımdır və çox çalışmaq daha çox təcrübə toplamaq deməkdir. Təcrübə isə bizim işdə çox vacibdir. Rəngkarlıq əsəri üzərində işləməyə qərar verdiyimizdə biz onun üzərində nə qədər çalışacağımız, nə qədər səy göstərəcəyimiz, hansı nöqtədə duracağımız və s. barədə qərarı yaradıcılıq prosesinə başladığımızda veririk. Amma tamamlanacaq rəngkarlıq nümunəsinin uğurla başa çatdıra biləcəyimizə öncədən təminat verə bilmirik. Bu baxımdan, hər bir uğurlu əsəri yeni axtarışın, kəşfin və ya ixtiranın mühüm nəticəsi kimi qiymətləndirmək olar.

Təcrübə olmadan işi uğurla başa çatdırmaq çətindir. Damcı-damcı axan su böyük bir qabı uzun zaman ərzində doldurur. Açıq hava şəraitində üzərində çalışdıgımız hər etüddən əldə edəcəyimiz təcrübəni məhz bir su damcısı ilə müqayisə etmək olar. Bu müqayisə sübuta yetirir ki, hər bir rəssam öz təcrübəsi artırmaq üçün çoxlu sayda yeni rəngkarlıq əsəri üzərində çalışmalıdır. Təcrübənin "damla-damla toplanması" özünü qısa müddət ərzində büruzə vermir çünki, bunun üçün uzun zaman tələb olunur. Uzun müddət ərzində öz üzərində çalışan, təcrübəsini artırmağa səy göstərən hər bir rəssam sonda əməyinin nəticəsi olaraq peşəkarlaşdığında sərf etdiyi zamanın hədər getmədiyini anlayır.

Təcrübəni iki yolla əldə etmək olar. Bunun birincisi yuxarıda qeyd etdiyimiz kimi rəssamın öz üzərində onu qane edəcək nəticəni əldə edənə qədər intensiv çalışaraq hər cür materialı, texnikanı, üslubu və s. sınaqdan keçirməsidir. Təcrübəni əldə etməyin ikincisi yolu isə müşahidə etməkdir. Şəhərdə və təbiətdə rəsm çəkmək böyük zövqlə yanaşı, müşahidə üçün əvəzolunmaz təcrübədir. Bir rəssam davamlı olaraq gördüklərini kətana köçürməsə belə, ətraf mühiti müşahidə edərək bədii təxəyyülünü inkişaf etdirməlidir. Belə ki, yaradıcı şəxsiyyətə sahib olmağın çətinliklərindən biri də daima yaradıcı axtarışında olmaqdır. Rəssam təsvir etdiyi və ya edəcəyi motivləri gözünün önünə gətirərək onları müqayisə etməli, eləcə də kompozisiya quruluşunu, perspektiv problemlərini, rəng münasibətlərini necə həll edəcəyi haqqında düşünməlidir.

Uğurlu yaradıcı fəaliyyət və seçilmiş peşəyə, özünü təkmilləşdirməyə davamlı marağı təmin etmək üçün təbiət motivinin yaradıcı həllini müstəqil axtarmaq istəyini, ehtiras, konsentrasiyanı təmin edən şəxsi motivasiya lazımdır. Rəssamın peşəkar və yaradıcı fəaliyyəti, yeni obrazların inandırıcı və ifadəliliyinə nail olmaq bacarığı və s. yüksək motivasiya hazırlığı ilə əlaqələndirilir. Motivasiya plener motivinin obrazlı həlli üçün davamlı müstəqil yaradıcılıq axtarışına, seçilən peşəyə, özünü təkmilləşdirməyə davamlı maraq və konsentrasiyanı təmin edir.

Plenerin üstün cəhətlərindən biri də odur ki, maraqlı motiv axtarışı zamanı səyahət edən gənc rəssamlar yeni yerlər, kəşf olunmamış guşələr, qədim memarlıq abidələri ilə tanış olacaqlar. Qeyd etməliyik ki, təbiətin gözəlliyini tərənnüm edən, eyni zamanda rəssamın ona emosional münasibətini ifadə edən əsərlər həm də Vətənə məhəbbət hissinin tərbiyəsində mühüm vasitədir. Bu baxımdan,

plenerdə işlənən əsərlər ilə təmas insanın ruhunu gücləndirir və onun daxili aləmini zənginləşdirir.

Plener yeni başlayan rəssamlar üçün akademik təhsilin əsas mərhələlərindən biridir. Bu texnikanın sirlərinə bələd olmaq rəssamlıq sənətini uğurla öyrənmək deməkdir. Təəssüflər olsun ki, müasir dövrdə plenerə çıxan rəssamların sayı getdikcə azalmaqdadır. Ancaq elə bir rəssam tapılmaz ki, onun yaradıcılığında bir zamanlar plenerdə çəkdiyi kiçik bir etüd olmasın.Çünki, plener rəssamların yaradıcılığına həyat verən, enerji ilə qidalandıran saf mənbədir və etüdlər həm təbiəti öyrənmək mənbəyi kimi, həm də gözü inkişaf etdirən, əlin dayanıqlığını gücləndirən, işə inam verən zəruri daimi məşqlər kimi lazımdır.

Texnoloji aləmin insan həyatının bütün sahələrini fəth etdiyi və texniki tərəqqinin nailiyyətlərinin getdikcə texnogen yaradıcılığı əvəz etdiyi müasir dövrdə biz çox vaxt gənc rəssamlarda təxəyyül çatışmazlığı ilə qarşılaşmalı oluruq. Bu səbəbdən müasir dövrümüzdə gənclərin diqqətini təbiətin estetikasına cəlb etməyin aktuallığı artır. Plener təxəyyülü oyatmağa, "yaradıcılıq mexanizmini" hərəkətə gətirməyə, sağlam ruha və yüksək mənəviyyata təşviq etməyə və orijinal kompozisiyaların yaranmasına ilham verməyə kömək edir. Açıq hava şəraitində uzunmüddətli işləmək həmişə tələbələrdə güclü estetik təcrübə yaradır, onlara inam verir, texniki bacarıqları inkişaf etdirir, peşəkar təkmilləşməyə və öz üslubunu formalaşdırmağa töhfə verir. Bu baxımdan rəssamlıq təmayüllü müəssisələrinin tədris prosesində plenerin rolu xeyli artır.Ola bilsin ki, rəssamın daxili aləmi heç bir təcrübədə plenerdə olduğu qədər aydın şəkildə açılmayıb.

**Nəticə**

Beləliklə, planetimizin heyrətamiz təbiəti insana hər dəfə yeni pəncərələr açır və onu ruhlandıran tükənməz mühit, forma və rənglər təqdim edir. Əsl rəssam təkcə reallığı deyil, maraqlı olanı, məna və dolğunluğu çatdıra bilən biridir. Və o açıq hava şəraitində nə qədər rəsm çəksə də dünyanın gözəlliyi və möhtəşəmliyi ilə kifayətlənə bilmir. Bunun üçün rəssam öz dünyaduyumuna uyğun olaraq zəruri olanı dəyişdirməyi bacarmalıdır. Ətrafdakı dünya vasitəsilə özlərini tapmağın həzzini yaşayanlar özlərini dəyişir və bu da bütün dünyanı dəyişir. Buna görə də biz təkcə baxmağı deyil, dünyanı, onun işığını və rəngini "görməyi" öyrənirik!

## ƏDƏBİYYAT


1. Андронникова, М.И. Об искусстве портрета. М.: Искусство, 1975.
2. Беда, Г.В. Живопись и ее изобразительные средства. Учебник. М.: Просвещение, 1977.
3. Виппер, Б.Р. Проблема сходства в портрете. М., 1917.
4. Волков, И.И. Цвет в живописи. М.: Искусство, 1984.
5. Грабарь, Й.Э. О колорите в живописи. М.: Юный художник, 1979.
6. Зайцев, А.С. Наука о цвете и живопись. М.: Искусство, 1986
7. Маслов, Н.Я. Пленэр: Практика по изобразительному искусству. М.: Просвещение, 1984.
8. Круглов, В.Ф. Константин Коровин / В.Ф. Круглов // М.: Издательство Русский музей, 2010, 132 с.


**** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının***
***"Akademik Rəngkarlıq" kafedrasının dosenti***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru,***

**Bakhtiyar Yusifov**

## THE ROLE OF PLEIN-AIR IN THE FORMATION OF THE ARTIST

There are unique ways and methods of learning the secrets of creativity that each type of art possesses. Anyone who wants to engage in various areas of the fine arts must, first of all, educate himself or herself, working hard. No matter how talented the artist is, the artistic experience plays a huge role in his or her formation as a creative person. Therefore, every artist must constantly, thanks to the experience, improve and walk step by step to the top of creativity. Plein-air plays a very

important role in the education of young artists. Plein-air means the creation of paintings in the open air in natural light. Plein-air, which is considered a special technique in painting, is derived from the French word “en plein air”, which means the open air. The plein-air technique involves artists working outside studios and workshops, capturing the variety of colors that are in the open air and in natural lighting.

**Keywords:** *plein-air, painter, outdoor, natural light, color, technique*

**Бахтияр Юсифов**

**РОЛЬ ПЛЕНЭРА В ФОРМИРОВАНИИ ХУДОЖНИКА**

Каждый вид искусства имеет свои уникальные пути и методы познания секретов творчества. Тот, кто хочет заниматься различными видами изобразительного искусства, должен прежде всего заниматься самообразованием, усердно работая. Каким бы талантливым ни был художник, художественный опыт играет огромную роль в формировании его как творческой личности. Поэтому каждый художник должен постоянно совершенствоваться на собственном опыте и шаг за шагом двигаться к вершине творчества. Пленэр играет очень важную роль в развитии молодых художников. Пленэр - это создание картин на открытом воздухе, при естественном освещении. Пленэр - особая техника в живописи, происходит от французского слова, означает открытый воздух. Техника пленэра предполагает работу художников вне студий и мастерских, позволяя им запечатлеть многообразие цветов, встречающихся на открытом воздухе и при естественном освещении.

**Ключевые слова:** *пленэр, художник, открытый воздух, естественное освещение, цвет, техника*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 20.01.2025**
**Son daxilolma tarixi:29.02.2025**